

# Müqəddəs ideyalar

**Hesabat dövründə Heydər Əliyev muzeyində iş planına və rayon icra hakimiyyəti başçısının təşəbbüsü ilə hazırlanmış qrafikə uyğun olaraq müvafiq iş aparılmışdır.**

Bununla bağlı rayonumuzun ərazisində fəaliyyət göstərən orta ümumtəhsil məktəblərinin, musiqi texnikumunun, Ağdam Dövlət Sosial İqtisad Kollecinin müəllim və şagirdləri, eləcə də idarə, müəssisə və təşkilatların kollektivləri muzeyə baxış keçirmişlər. Gələn qonaqlar ulu öndər Heydər Əliyevin keçirdiyi şərəfli ömür yolu ilə, ümummilli liderin həm 1969-82-ci illərdə, həm də müstəqillik dövründə Azərbaycanın siyasi rəhbəri olarkən Ağdama gəlişini, müxtəlif kənd və qəsəbələrdə keçirdiyi görüşləri əks etdirən foto-şəkillərlə, kitablarla tanış olmuşlar. Şagirdlərə vətənpərvərlik ruhunu aşılamaq üçün onlara ulu öndərin təhlükəsizlik orqanlarında işlədiyi dövr, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, SSRİ Ali Sovetinə rəhbər vəzifələrdə çalışarkən, eləcə də müstəqillik dövründə Azərbaycan xalqına, xüsusilə də ağdamlılara göstərmiş olduğu diqqət və qayğı haqqında geniş məlumat verilmiş, mütəmadi olaraq sənədli filmlər nümayiş etdirilmişdir.

Əlamətdar günlərdə muzeyimizə gələn qonaqlara ulu öndərin xalqımızın adət və ənənələrinə göstərdiyi diqqət və qayğıdan, 31 mart Azərbaycanlıların soyqırımı ilə əlaqədar ulu öndərin 26 mart 1998-ci il tarixdə imzaladığı Azərbaycanlıların soyqırımı gününün qeyd edilməsi ilə bağlı fərmanın əhəmiyyətindən danışılmışdır.

Bundan başqa 10 may ulu öndərimizin doğum günü, 15 iyun Milli Qurtuluş günü təntənəli şəkildə qeyd olunmuşdur. Təkcə 10 may 2010-cu il tarixində 2500 nəfərdən çox vətəndaş muzeyimizi ziyarət etmişdir.

Bütövlükdə hesabat dövründə muzeyə gələnlərin sayı 7000 nəfərdən çox olmuşdur. Rayonda keçirilən bütün tədbirlərə qoşulur, qonşu rayonların Heydər Əliyev muzeyləri ilə sıx əməkdaşlıq edirik. Mütəmadi olaraq gələn qonaqlara Heydər Əliyev fondunun humanist fəaliyyəti barədə məlumat verilir, iş planına əsasən görülən işlərin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

**Rayon Mədəniyyət və Turizm şöbəsi muzeyimizi son model kompüter dəsti ilə təmin etmişdir. Muzeyimiz ən yaxın gələcəkdə internet xətti ilə təchiz ediləcək ki, bu da bizim Heydər Əliyev Fondunun, Mədəniyyət və Turizm Nazirliyinin və eləcə də Ağdam Rayon İcra Hakimiyyətinin fəaliyyəti barədə rəsmi məlumat toplamağa və öz işimizi bunun əsasında qurmağa imkan verəcəkdir.**

**Anar ƏMİROV,**
*Ağdam rayonundakı Heydər Əliyev muzeyinin direktoru*